# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA EKOLOJİ VƏZİYYƏTİN DAHA DA YAXŞILAŞDIRILMASI SAHƏSİNDƏ XİDMƏTLƏRİ

**Ədalət Qasımov**

*AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Bakı*
*adaletqasimov56@mail.ru*

Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətində ölkədə ekoloji mühitin sağlamlaşdırılması və mühafizəsinin yaxşılaşdırılması prioritet istiqamətlərdən birini təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevə qədər respublikada ekoloji problemlərin həllinə kifayət qədər diqqət yetirilməmiş, həyata keçirilən tədbirlər sistemli xarakter almamışdır.

1969-cu ildə Azərbaycan SSR-də siyasi rəhbər seçiləndən sonra respublikada ekoloji problemlərin davamlı inkişaf prinsipləri əsasında həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməyə başlandı. Sovet totalitar sisteminin yaratdığı məhdud imkanlardan məharətlə istifadə edən Ulu Öndər ölkədə ekoloji tarazlığın təmin edilməsinə zəmin yaradacaq mühüm qərarların qəbul edilməsinə nail oldu.

Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan KP MK və Nazirlər Soveti 1974-cü ilin aprel-avqust aylarında, 1975-ci ilin oktyabrında bir neçə dəfə təbiətin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə məsələlərini müzakirə etmiş, Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin "Təbiətin mühafizəsinin möhkəmləndirilməsi və təbii ehtiyatlardan istifadə etməyin yaxşılaşdırılması haqqında" 29 dekabr 1972-ci il tarixli qərarından irəli gələn vəzifələr müəyyənləşdirilmişdir.

Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə təbiətin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadəyə dair 8 qanun, Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin 32 qərarı qəbul edilmişdir.

Qeyd edilən dövrdə respublikada 45 min hektar sahədə 6 dövlət təbiət qoruğu yaradılmışdır. Bilavasitə Heydər Əliyevin səyləri sayəsində Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün 1978-1981-ci illərdə 114,8 mln manat maliyyə vəsaitinin ayrılmasına nail olunmuş, Abşeronun yaşıllıq diyarına çevrilməsi üçün mühüm işlər görülmüşdür. Abşeron ərazisinin 1321 hektarı yaşıllaşdırılmış, 1 milyarddan çox ağac, 2 milyarddan çox kol əkilmişdir.

Çox təəssüf ki, Heydər Əliyev Azərbaycandan gedəndən sonra, xüsusilə 1988-1990-cı illərdə respublikada bir-birini əvəz edən iqtidarlar dövründə bu sahə diqqətdən kənarda qalmış, demək olar ki, tamamilə unudulmuşdur.

Yalnız 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ekoloji məsələlərə diqqət artırılmış, bilavasitə onun təşəbbüsü ilə ətraf mühitin mühafizəsi və qorunması istiqamətində mühüm qərarlar və qanunlar qəbul edilmişdir.

1998-ci ildə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ekoloji prioritetləri müəyyən edən "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı" hazırlandı. Bu Proqramda nəzərdə tutulmuş layihələrin həyata keçirilməsi nəticəsində Azərbaycanda müasir Təhlükəli Tullantılar poliqonu, Xilli Nərə Balıqartırma zavodu inşa edildi.

Ekoloji problemlərin həlli, ətraf mühitin qorunması işinin daha səmərəli təşkili və vahid idarəetmə sisteminin yaradılması məqsədilə 2001-ci ildə Heydər Əliyevin Fərmanı ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması bu sahədə dövlət siyasətinin həyata keçirilməsini stimullaşdırdı.

2003-cü ildə Heydər Əliyev tərəfindən "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram təsdiq edildi. Bu strateji Proqram əsasında ətraf mühitin müxtəlif sahələri üzrə 4 milli və dövlət proqramları, kompleks tədbirlər planı təsdiq edilərək, həyata keçirilməyə başlanıldı.

Ümumiyyətlə, 2001-ci ilin may ayından 2003-cü ilin iyul ayınadək Prezident Heydər Əliyev tərəfindən ekomühitin ən müxtəlif məsələləri ilə bağlı 27 fərman və sərəncam imzalanmışdır. Həmin illərdə Ümummilli Lider Heydər Əliyevin ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılması, ağacların əkilməsi, xüsusən də Bakıda və Abşeron yarımadasında yaşıllıq zolaqların genişləndirilməsi üçün verdiyi tapşırıqlar üzrə su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, ölkənin su təchizatı, inkişafı və dirçəlişi istiqamətində mühüm işlər görüldü.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, düşünülmüş ekoloji siyasətin uğurla həyata keçirilməsi respublikada ətraf mühitin sağlamlaşdırılmasına, ekoloji tarazlığın təmin edilməsinə imkan vermişdir.